## Azərbaycan Cümhuriyyətinin yoxdan var olması!

# Tariximizin ən şərəfli və qürurlu günü

## (Azərbaycan Cümhuriyyətinin 100 illiyi münasibətilə)





Fəzail İsmayıl Böyükkişi

### III YAZI

***İngilislərin Qafqazı tərk etməsindən sonra N.Yusifbəyli parlamentdəki çıxışında millət vəkillərinə müraciət edərək demişdi: "Əfəndilər! Dövlətin bu gündən etibarən istiqlaliyyətə yetməsi münasibəti ilə sizi təbrik edirəm". İngilislərin Bakıda qaldığı müddətdə sənədlər göstərir ki, Azərbaycan parlamenti və Azərbaycan hökuməti ingilislərin əlində oyuncaq olmamış, onların ölkənin daxili işlərinə qarışmasını mütəmadi olaraq məhdudlaşdırmışdır. Ədalət namine onu da deyək ki, ingilislərin Rusiya işlərinə münasibətindəki təbəddülat, beynəlxalq vəziyyətin keçmiş məzlum xalqların xeyrinə dəyişməsi Azərbaycan hökumətinin öz mövqelərini, Azərbaycanın suverenliyini qorumaq üçün şərait yaradırdı".***

***1919-cu ilin aprel ayının 25-də Tiflisdə Azərbaycan, Dağıstan, Gürcüstan və Ermənistan nümayəndələrinin iştirakı ilə Qafqaz Konfransı işə başladı Lakin Denikinin Ordusunun Dağıstana hücumu ilə konfrans öz işini dayandırmağa məcbur oldu. Azərbaycan Respublikası Dağlılar Respublikasına 10 milyon pul borc verdi və orda Denikinin ordusuna qarşı döyüşmək üçün könüllülər dəstəsi göndərdi. Bunun da əsas səbəbi Dağıstan əhalisinin Azərbaycana meyli olması onunla birləşmək haqqında dəfələrlə müracitə etməsi idi.***

Çox çəkmədi Denikinin dəstələri Dərbəndə gəlib çıxdı. Mətbuatda onun Biləcəriyə qədər dəmir xəttini və Bakı limanını tutacağı haqqında xəbərlər yayılırdı. Denikinin bu hücumu Azərbaycan xalqını qəzəbləndirmişdi, mitinq və nümayişlərdə yerli əhali Azərbaycan istiqlaliyyətini son damla qanına qədər qoruyacağını bildirərək hökumətdən qəti tədbirlər görməsini tələb edirdi. Parlamentin fövqəladə iclası çağrılmış, Dövlət Müdafiə Komitəsi yaranmış və bütün hakimiyyət onun ixtiyarına keçmişdi. Azərbaycan ordu hissələri könüllülər hesabına möhkəmləndirilərək Samur çayı hövzəsinə yeridildi. Xarici işlər nazirinin müavini A.Ziyadxan Kuban hökuməti yanındakı diplomatik nümayəndəsinə 26 iyun tarixli məktubunda yazırdı: "Bizim hökumətin nəzərincə Azərbaycanın istiqlaliyyətinə təcavüz edən hər bir kəs kimliyindən asılı olmayaraq onun düşmənidir. Könüllü orduya münasibətimiz belədir, birdəfəlik və qəti olaraq qərara alınmışdır ki, könüllü ordu hissələrini Azərbaycan Respublikası ərazisinə buraxmamalı Dağıstanda olan könüllü ordu hissələrini oradan çıxarılması üstündə israr etməli və Azərbaycan ordusu demokrasiya xəttinə qədər Dağıstanı tutmalıdır".

1919-cu ilin iyun ayının 27-də Denikinin hücumuna qarşı Azərbaycanla Gürcüstan arasında hərbi-müdafiə faktı imzalandı. Bu fakta görə Azərbaycan, Gürcüstan istiqlaliyyəti hər hansı dövlət tərəfindən təcavüz olunduğu təqdirdə onlar bir-birinə hərbi yardım göstərməlidirlər. Lakin Ermənistan bu fakta qoşulmadı. Ermənilər Denikinlə gizli müqavilə bağladılar, Qarabağda, Dilicanda iğtişaş yaratmağa başladılar. 1919-cu ilin iyun ayında İstanbulda yeni yaranmış dövlətlərin taleyini həll edən konfransda M.Ə.Rəsulzadə 7 nəfərdən ibarət nümayəndə ilə iştirak edirdi. Bu konfransda İran Azərbaycan adlı müstəqil dövləti tanımaq belə istəmirdi. Bununda səbəbi aydın idi. Şimali Azərbaycan vardısa deməli o Cənubi Azərbaycanla birləşib öz ərazi bütövlüyünü təmin edib qüdrətli dövlətini qurmalı idi.

Türkiyə hökuməti yanında Azərbaycanın rəsmi nümayəndəsi Əlimərdan bəy Topçubaşı idi. O xarici ölkələrin Türkiyədə olan nümayəndələr ilə görüşlər aparır. O Azərbaycan Respublikasının yaranması hazırki vəziyyəti və dünya ölkələrilə diplomatik əlaqələr yaratması məzmununda rəsmi memorandum təqdim edirdi. İran tərəfi yeni yaradılan dövlətin "Azərbycan" adlandırılmasını böyük səhv adlandırırdı. İran tərəfi onu da deməyi unutmurdu ki, İran gələcəkdə özünün tarixi torpaqlarını tələb edəcək və ona sahib duracaq. Onun bu əsassız tələbisə Əli Mərdan bəyin kəskin etirazı ilə qarşılanırdı.

Azərbaycan hökuməti adından Əli Mərdan bəyin Avropanın bir sıra ölkələrində siyasi və konsul nümayəndəliyi yaratmaq təklifi soyuq qarşılanırdı, onların Azərbaycana yad münasibəti barədə hökumətə məlumatında Əli Mərdan bəy göstərirdi ki, "Avropa, xüsusən Antanta ölkələri nümayəndələrinin etirazına görə müsəlman və türk mənşəli olduğumuzdan günaha (əgər bu günahdısa!) batmışıq". Bu yad münasibət 1919-cu ilin dekabrın 7-də Parisdə çağırılan beynəlxalq sülh konfransında özünü göstərdi. Bu nümayəndə heyətinin başçısı Azərbaycanda nüfuz sahibi olan parlamenti sədri (prezident səlahiyyətli) Əlimərdan bəy Topçubaşı idi. Nümayəndə heyətinin üzvləri M.N.Hacınski (müsavat), Ə.Ağaoğlu (bitərəf, demokrat), Ə.Şeyxülislamzadə (himmət), müşavirlər M.Məhərrəmov (sosialist), M.Y.Mirmehdiyev (ittihad), C.Hacıbəyli (müsavat), əməkdaşları Ə.Hüseynzadə (bitərəf), V.Marcebski (bitərəf) idi. Onlardan başqa nümayəndə heyətinə katiblər (S.Məlikov, Ə.Topçubaşov), tərcüməçilər (A.Qafarov, Q.Qafarova, H.Məmmədova) və heyət sədrinin şəxsi katibi də (R.Topçubaşov) daxil idi".

***Bu konfrans çox gec baş tutdu. Azərbaycan nümayəndə heyəti 1919-cu ilin 28 mayında Cümhuriyyət günündə ABŞ prezident V.Vilsonla görüşə bildi. Əlimerdan bəy Topşubaşov Azərbaycan Demokratik Respublikasının 1-ci ildönümündə bunları ABŞ-prezidenti V.Vilsona bildirdi: "Azərbaycan tam demokratik əsaslarla idarə edilən istiqlalı uğrunda qurbanlar verən Respublikadır".***

***Hakimiyyətimizin 1 ili müddətində azğın düşmənlərimiz ermənilər tərəfindən 2 şəhərimiz, 500-dən çox kəndimiz dağıdılmış, 100 min nəfərdən çox qurban vermişik. Bundan sonra Əlimərdan bəy Topçubaşı Azərbaycan istiqlaliyyətinin tanınmasını, Vilson prinsiplərinin Azərbaycana aid edilməsini, Azərbaycanın Millətlər cəmiyyətinə qəbul olunmasını, ABŞ-ın Azərbaycana hərbi yardım göstərməsini, ABŞ-la Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin bərqərar edilməsi məsələlərində Azərbaycan nümayəndə heyətinə köməklik göstərməsini V.Vilsondan xahiş etmişdir.***

Lakin ABŞ prezidenti V.Vilson sülh konfransının dünyanı kiçik hissələrə parçalamaq fikrində olmadığını dedikdən sonra Azərbaycan nümayəndələrinə konfederasiya ideyasını (yəni böyük dövlətlərdən biri ilə ittifaq yaratmağı) müdafiə etməyi məsləhət görmüşdür. Soyuq qarşılandığını duyan Azərbaycan nümayəndə heyəti Avrova və Amerikanın özündə Azərbaycan həqiqətlərini dünyaya yaymağa başladı. Böyük maddi-maliyyə çətinliyinə baxmayaraq, yerli amerikalıların fəal iştirakı ilə xüsusi komitə yaradıldı. Onun əsas vəzifəsi ermənilərlə polemikaya girmədən Azərbaycanı tanıtmaqdan ibarət idi. Belə ki, nümayəndə heyəti Azərbaycan tarixini, əhalisinin antropologiyası və etnik tərkibi, təsərrüfat, Azərbaycan Respublikasının mövcud vəziyyəti haqqında ingilis və fransız dillərində bir neçə dolğun (indi də elmi məzmununu itirməyən) kitabçalar hazırlayıb çap etdirdilər və Avropada yayılmasını təşkil etdilər. Bundan başqa nümayəndə heyəti fransız dilində informasiya bülleteni də neşr etməyə başladı, yerli mətbuat orqanlarında Azərbaycana aid bir sıra materialların çapına da nail oldu, 1919-cu ilin payızında İran tərəfinin Paris konfransında fəaliyyəti təəccüb doğururdu. Belə ki, İran tərəfi Bakı, Dərbənd, Şəki, Şamaxı, Gəncə, Qarabağ, Naxçıvan və İrəvanı tələb edirdi və öz tələbini buranın "müsəlman əhalisinin əksəriyyətinin İran mənşəli, ya da İran irqindən" olması ilə əsaslandırırdı. Əlimərdan bəy qarşıda gözlənilən bütün çətinlikləri nəzərə alaraq Nazirlər Şurasının sədrinə yazdığı məktubda göstərirdi: "Hiss olunur ki, bizim azad, müstəqil yaşamaq haqqında ümidimizin möhkəmləndiyi və onun gerçək formaya çevrildiyi dövr başlanır. Biz heç vaxt keçmiş Rusiyanın bütün xalqları üçün ən əlverişsiz anlarda belə, hətta üzümüzə çəkdiyimiz əziyyətlərin nətisəsiz qalacağını dedikləri vaxtlarda belə ümidimizi itirmirik. Məhz ona görə ümidimizi itirmirik ki, xalqımızın müstəqil yaşaya bilməsinə və hansı qurbanlar hesabına olursa-olsun gec-tez öz istiqlaliyyətinə çatmasına inanırıq. Biz heç vaxt bu əvəzsiz nemətı əldən vermək fikrindən əl çəkməyəcəyik. Bu əvvəllər də yazdığım kimi verəcəyimiz hər hansı qurban qarşısında biz öz haqq yolumuzdan dönməyəcəyik. Biz arzu edirik ki, hamı bizim bütün xalqımız dərk etsin ki, bu aylarda, bu günlərdə biz azad siyasi-ictimai və iqtisadi həyata qadir olmağımızın sübutu yolunda imtahan vermək istəyirik..."

Həmin dövrdə Denikinin Azərbaycana münasibəti günbəgün pisləşirdi. 1920-ci ilin yanvarın 2-də RSDFSR-nın xalq xarici işlər komissarı G.Civerin Azərbaycan hökumətinə verdiyi notasında "nə qədər ki, gec deyil Denikinə qarşı mübarizəyə başlamağı məsləhət görürdü, Azərbaycan dövləti və onun əməkçi siniflərini siniflərinin sosial-siyasi mənafeyinin düzgün başa düşünülməsinin Azərbaycanı razılıq verməyə məcbur edəcəyini" deyib Denikinə qarşı hərbi ittifaq yaratmağı təklif edirdi. Dövlət Müdafiə Komitəsi başqa tədbirlərlə yanaşı "İngiltərənin nüfuzundan Respublikanın xeyrinə istifadə etmək" haqqında qərar qəbul etdi.

Paris Sülh Konfransı tərəfindən göndərilmiş nümayəndə heyətinin Azərbaycanda apardığı təhqiqat bu məmləkətin əhalisini müstəqil dövlət şəklində idarə etməyə qadir və layiq olduğunu göstərdi. Vilson prinsiplərindən doğan yeni yaranmış dövlətin şərtlərinə Azərbaycan tam cavab verirdi. Bu şərtlər aşağıdakılardan ibarət idi: müstəqillik iddiasında olan hər bir millət fiziki, zehni, dini-mənəvi xüsusiyyətlərinə görə seçilməli, həmin millət öz müqəddəratını özünün təyin etməsinə qabil olduğunu göstərməli, öz xərcini ödəmək üçün iqtisadi-təbii şəraitdə və maliyyə vəsaitinə malik olması, xarici təcavüzdən özünü qoruya bilməli: əvvəllər tərkibinə daxil olduğu ölkə hökumətinin zülmünə məruz qalmış olmalı idi. ***Nəhayət, 1920-ci ilin yanvarın 11-də Lord Kerzonun təklifi ilə Paris konfransının ali şurası Azərbaycanın və Gürcüstanın istiqlaliyyətinin de-fakto tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Beləliklə də Əli Mərdan bəy Topçubaşinin başçılığı ilə Azərbaycan nümayəndə heyətinin çəkdiyi zəhmət hədər getmədi. 1920-ci ilin yanvarın 14-də Azərbaycan Parlamentinin təntənəli iclası oldu. Millət vəkilləri və parlamentin iclasında iştirak edən xarici ölkələrin diplomatik nümayəndələri istiqlal yolunda qurban getmiş Vətən oğullarının və Türkiyə əsgər və zabitlərinin xatirəsini yad etdilər. Bu tarixi hadisə münasibəti ilə əhv-ümumi elan edildi. Daha sonra parlament üzvləri və qonaqlar paradda iştirak etdilər.***

1920-ci ilin mart ayının 5-də hökumətin qərarı ilə Paris sülh konfransında öz funskiyasını müvəffəqiyyətlə yerinə yetirmiş Azərbaycan nümayəndə heyətinin ləğvi, aprel ayının 1-dən etibarən Fransa, Böyük Britaniya, İtaliya, ABŞ və Polşanın paytaxtlarında fəaliyyət göstərəcək Azərbaycan diplomatik nümayəndəliklərinin yaranması haqqında parlamentə qanun layihəsi təqdim edildi. Polşada yaradılacaq diplomatik nümayəndəlik eyni zamanda Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna ilə rəsmi əlaqələr yaratmalı bu ölkələrin hökumətləri ilə diplomatik münasibətlərdə Azərbaycan hökumətini təmsil etməli idi. Hələ 1919-cu ilin dekabrında başlanmış danışıqlar nəticəsində Azərbaycan Respublikası ilə İran arasında ticarət, gömrük, poçt-teleqraf müqavilələri və konsul konvensiyası imzalandı. Bir sıra sənədlər sübut edir ki, Sovet Rusiyası ilə əlaqələrin yaradılmasını Azərbaycan Respublikası hökuməti zəruru hesab etmiş, bu yolda addımlar atmaq təşəbbüsündə olmuşdu. 1919-cu ilin yazında Nazirlər Şurasının yeni sədri seçilmiş Nəsib bəy Yusifbəylinin təkşil etdiyi hökumətin proqramında başqa vacib məsələlərlə yanaşı, Sovet Rusiyası ilə iqtisadi və ticarət əlaqələrinin bərpası vəzifəsini də irəli sürürdü.

Denikin təhlükəsinin real xarakter aldığı 1919-cu ilin avqust ayının axırlarında N.Nərimanov Azərbaycan, Dağıstanın, Gürcüstan fəhlə və kəndlilərinə belə müraciət edirdi: "Hakim siniflərinizin yenidən sizi aldatmaması üçün bir daha bütün dünya qarşısında bəyan etməyi sərvaxt iş hesab edirik. Rusiyası Sosialist Sovet Respublikası heç vaxt özgə torpaqlarını tutmaq, ya özgə torpağında silah gücünə hakimiyyətini bərpa etmək məqsədilə hərəkət etməmişlər. Sovet Rusiyaya öz hakimiyyətini bərpa etmək üçün əldə silah sizin respublikalarınız üzərinə əsla yürüş etmək fikrində deyildir. O, öz müqəddəratını təyin etmək hüququnun möhkəm tərəfdarıdır. Əgər siz, Qafqaz müsəlmanları və gürcüləri, respublikanızdakı idarə üsulundan razısınızsa, sakitcə yaşayın, öz həyatınızı qurun və bizimlə mehriban qonşuluq münasibətlərini bərpa edin".

1920-ci ilin yanvarında 23-də Cicerin verdiyi nota ilə Avropa ölkələrinin Azərbaycan istiqlaliyyətinə əhəmiyyət verməidiyini göstərirdi. Artıq Denikinin ordusu əvəzinə Dərbəndə doğru Qızıl ordu irəliləyirdi. Avropa dövlətləri Azərbaycan Respublikasına hərbi yardım göstərmirdi. Fətəli xan Xoyski öz məsləkdaşlarına Sovet rusiyasının məqsədinin Azərbaycan istiqlalının aradan götürülməsi olduğunu deyirdi. Bunun üçün də o bu sətirləri vacib bilirdi:

1) Sovet Rusiyasına böyük güzəştlər verilməsini təklif edən M.Hacınskini daxili işlər naziri vəzifəsindən kənarlaşdırmaq, onun yerinə kommunizmlə mübarizəyə hazır olan adam təyin etmək.

2) Sosialistləri hökumətdə başqaları ilə əvəz etməli.

3) Parlamenti buraxmalı və ölkəni müdafiə məqsədi ilə hökumətə fövqəladə hüquqları verməli.

4) Azərbaycan Müəssislər Məclisinə yaxın altı ayda seçkilər keçirilməli.

1920-ci ilin martın 17-də Lenin Qafqaz cəbhəsi hərbi inqilab şurası Smilqa və Orconikidzeyə yazırdı: "Bakını tutmaq bizə son dərəcə də zəruridir. Bütün səyinizi buna verin". Belə bir şəraitdə Bakıda hökumət böhranı baş verdi. Mart ayındakı konfransda Xoyski və tərəfdaşlarının uğuruna baxmayaraq M.Hacınski qrupunun siyasi xətti qalib gəldi. Nəsib bəy Yusifbəyli istefa verdi, yeni hökumətin təşkili M.Hacınskiyə tapşırıldı. ***Lakin o yeni hökumətin təşkilini ləngitdi. O bolşeviklərlə danışığa girdi. Bolşeviklər onun öz hökumətində iştirak etməkdən imtina etdikdə M.Hacınskinin özü Kommunist partiyasına daxil oldu. Sovet Rusiyasının Azərbaycan Respublikasına qalib gəlməsində Osmanlı imperiyasının süqutu ilə bərabər Ermənistanın Azərbaycan respublikasına qarşı düşmənçiliyi də böyük rol oynadı. XI Qızıl Ordu Azəraycan sərhəddini keçəndə bolşeviklər Azərbaycan parlamentinə hakimiyyətin təhvili haqqında ultumatum verdi. Onlar bu ultumatumda aşağıdakı şərtlərə əməl edəcəklərini deyirdilər: 1) Rus ordusu Bakıya girmədən dəmiryolu ilə birbaşa Anadolunun imdadına gedəcək. 2) Azərbaycan istiqlalı və ərazi bütövlüyü hər cür təcavüzdən, talandan, ilhaqdan, kölelikdən qorunacaq. 3) Azərbaycan Ordusu olduğu kimi qalib buraxılmayacaq. 4) Azərbaycan siyasi partiyaları hürriyyər və sərbəstliyini mühafizə edəcək. 5) Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkillərindən heç biri siyasi cinayətdə ittiham edilməyəcək. 6) Azad şəraitdə toplanacaq Azərbaycan şuraları hökumətin idarə şəklini təyin edəcək". Bolşeviklərin bu ultumatumu Azərbaycan parlamentində müzakirə edildi. 1920-ci ilin aprel ayının 27-də axşam saat 11-də Azərbaycan parlamenti hakimiyyəti bolşeviklərə vermək haqqında qərar qəvul etdi. Lakin bolşeviklərsə verdiyi vədlərin heç birinə əməl etmədi.***

*Yazı Ortaq Dəyərlər İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə icra etdiyi "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi çərçivəsində milli dövlətçilik ideyalarının təbliğı" layihəsi əsasında dərc olunur*